**Azərbaycan Milli Elmlər Akademiyası**
**və**
**Türk Akademiyası arasında**
**(Qazaxıstan Respublikası)**
**elmi əməkdaşlıq haqqında**

# MEMORANDUM

Bundan sonra "Tərəflər" adlandırılacaq, bir tərəfdən prezident, akademik Darxan Kıdıralinin təmsil etdiyi qeyri-kommersiya təşkilatı olan "Türk Akademiyası", digər tərəfdən prezident, akademik Akif Əlizadənin təmsil etdiyi Azərbaycan Milli Elmlər Akademiyası,

elmi tədqiqat sahəsində əməkdaşlığın ikitərəfli münasibətlərin əsaslarından biri olduğuna və onların sabitliyinin təmin edilməsində əsas ünsür olduğuna əmin olaraq,

təhsil və beynəlmiləlləşmənin dinamik inkişafı, eyni zamanda elmi tədqiqatların təkmilləşdirilməsi dövründə ikitərəfli əməkdaşlığı inkişaf etdirməyin vacibliyini qeyd edərək,

əməkdaşlığın aşağıdakı əsas prinsipləri üzrə razılığa gəldilər:

## Maddə 1
## Ümumi

Memorandumun əsas məqsədi Tərəflərin əməkdaşlığı davam etdirmək niyyətində olduqları müddətdə elmi tədqiqat sahəsində ikitərəfli əməkdaşlıq şərtlərini tənzimləməkdir.

Tərəflər Türkologiya sahəsində qarşılıqlı əməkdaşlığın uzunmüddətli və konstruktiv xarakterli olması məqsədilə əməkdaşlıq edəcəklər.

Tərəflər elmi-tədqiqat sahəsində əməkdaşlıq üçün layihələrin ətraflı seçiminə razıdırlar. Bu baxımdan, daha səmərəli şəkildə əməkdaşlıq üçün səylər məhdud sayda tədqiqatlar ətrafında aparılacaq. Əməkdaşlığın bu sahələri Qazaxıstan Respublikası və Azərbaycan Respublikası üçün qarşılıqlı maraq kəsb etməli, beynəlxalq əhəmiyyətli elmi tədqiqatlar yüksək səviyyədə həyata keçirilməlidir.

## Maddə 2
## Elmi tədqiqatlar

Tərəflər humanitar sahədə (xüsusilə türkologiya) elmi tədqiqatın əhəmiyyətini qeyd edirlər. Tərəflər hal-hazırda və gələcək elmi fəaliyyətin yüksək səviyyədə həyata keçirilməsi ilə bağlı istənilən əlverişli şəraitdən istifadə etməyin mühüm olduğunu anlayırlar. Bu məqsədlə Tərəflər ikitərəfli əməkdaşlığı aşağıdakı prioritet sahələr üzrə aparacaqlar:

- türk xalqlarının tarixi və mədəniyyəti, türk dilləri və ədəbiyyatı, fəlsəfə, hüquq, iqtisadiyyat və türkdilli dövlətlərin siyasəti, Qazaxıstan-Azərbaycan əlaqələri. Tərəflər hər il bu sahələr daxilində və onların ətrafında xüsusi prioritet istiqamətlər müəyyən edirlər. Milli proqramlar və ikitərəfli əməkdaşlıq, mümkün olduğu qədər, bir-biri ilə bağlı olmalıdırlar.
- Tərəflər gənc alimlərin əməkdaşlığa cəlb edilməsinə xüsusi əhəmiyyət verir.

## Maddə 3
## Əməkdaşlıq formaları

Bu Memoranduma əsasən əməkdaşlıq aşağıdakı formalar üzrə həyata keçirilə bilər:

- birgə elmi-tədqiqat qruplarının köməyi ilə elmi layihələrə dəstək verilməsi;
- müştərək konfransların, simpoziumların və ya işçi qruplarının təşkili;
- hər iki Tərəfin yeni nəşrlər ilə bağlı yeniliklərinin elmi ictimaiyyətə çatdırılması;- elmi-texniki sənədləşmənin mübadiləsi;
- mühüm əhəmiyyət kəsb edən nəşrlərlə bağlı təqdimatların həyata keçirilməsində işbirliyi;
- elmi-texniki sənədlərin mübadiləsi.

## Maddə 4
## Memorandumun həyata keçirilməsi

Bu Memorandumun həyata keçirilməsinin səmərəliliyini təmin etmək məqsədilə, Tərəflər Bakı və ya Astana şəhərlərində illik iclas keçirəcəklər. İllik iclaslarında Tərəflər aşağıdakıları müzakirə edəcəklər:

- Qazaxıstan və Azərbaycan arasında türkologiya sahəsində əməkdaşlığın inkişafında əldə olunmuş nailiyyətlərin müzakirəsi;
- Bu Memorandumun 2-ci maddəsinə əsasən iki ölkə arasında əməkdaşlığın prioritet sahələrinin müəyyən edilməsi;
- əməkdaşlıq və ya ona aid istənilən məsələlərin müzakirəsi.

## Maddə 5
## Əqli mülkiyyət

Tərəflər, bu Memoranduma əsasən, birgə fəaliyyət prosesində yaranan əqli mülkiyyət hüquqlarının ədalətli bölgüsünü hər iki ölkədə qəbul olunmuş qanunlara və normativ sənədlərə, eyni zamanda Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının iştirakçısı olduğu beynəlxalq sazişlərin müddəalarına əsasən tələb olunan faktiki müdafiənin təmin edilməsinə zəmanət verirlər.

## Maddə 6
## Digər şərtlər

Bu Memorandum beş (5) il müddətinə imzalanır.

Tərəflər bu Memorandum çərçivəsində əməkdaşlıq zamanı əldə edilən nəticələri dörd il sonra müzakirə edəcəklər.

## Maddə 7
## Yekun şərtlər

Bu Memorandum imzalandığı gündən qüvvəyə minir və beş il müddətinə bağlanır.
Bu Memorandum beynəlxalq standartlardan irəli gələn hüquq və öhdəliklərə toxunmur.
Bu Memorandum Bakı şəhərində_______________ 2014-cü ildə, hər ikisi eyni qüvvəyə malik iki nüsxədə olmaqla rus və azərbaycan dillərində imzalanmışdır.

| | |
|---|---|
| **Azərbaycan Milli Elmlər Akademiyası adından** | **Türk Akademiyası adından (Qazaxıstan Respublikası)** |
| **Prezident** | **Prezident** |
| **akad. Akif Əlizadə** | **akad. Darxan Kıdırali** |